Kişi ilə şirk və küfür arasında namazı tərk etməsi vardır

Cabirdən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə demişdir: Mən Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Kişi ilə şirk və küfür arasında namazı tərk etməsi vardır".

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) fərz namazların tərk edilməsindən çəkindirmiş, kişi ilə şirkə və küfrə düşməsi arasında namazın tərk edilməsi olduğunu xəbər vermişdir. Namaz İslamin ikinci rükunudur. Namazın İslamda yeri əzəmətlidir. Kim namazın vacib olunduğunu inkar edərək tərk edərsə, o, müsəlmanların icması ilə kafir olar. Namazı səhlənkarlıq və tənbəllikdən dolayı bütünlüklə tərk edən kimsə də kafirdir. Bu məsələdə bizə səhabələrin icması nəql edilmişdir. Əgər bir kimsə namazı bəzən qılıb, bəzən də tərk edərsə, o, bu şiddətli təhdidə məruz qalar.

http://sunnah.global/hadeeth/az/show/65093